

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 46 (21.707)

*4 mart 2017-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 3 mart tarixli sərəncamları ilə Azərbaycan Respublikasının ictimai həyatında, təhsil, səhiyyə və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə, 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bir qrup şəxs təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının ictimai həyatında, təhsil və səhiyyə sahələrində fərqlənən qadınlar da vardır.

**Məmmədova Aytən Əkbər qızı**

“Tərəqqi” medalı ilə,

**Babayeva Aynur Arif qızı**

“Əməkdar müəllim”,

**Məmmədova Sona Keykavus qızı**

“Əməkdar həkim” fəxri adları ilə təltif edilmişlər.

## Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər cari ildə də davam etdiriləcək

***Son illərdə muxtar respublikada təsərrüfat sahələrinin inkişaf etdirilməsi, şəhərlərin, qəsəbələrin, kəndlərin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verməkdədir. Doğma diyarımızın bütün bölgələrinin, eləcə də paytaxt Naxçıvan şəhərinin sosial-demoqrafik inkişafı, əhalinin mənzil-məişət şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması dediklərimizə sübutdur.***



Muxtar respublikada mənzil-tikinti sektoru üzrə uzunmüddətli vahid dövlət siyasətinin formalaşdırılması nəticəsində bu gün mənzil-tikinti sektoru günbəgün genişlənir və imkanlarını artırır. Əgər 20 il bundan əvvəl hər hansı bir tikinti təşkilatı ildə cəmi bir obyektdə inşaat işləri aparmaq imkanına malik idisə, bu gün dövlət qayğısından bəhrələnən və muxtar respublikanın çiçəklənməsində böyük rolu olan tikinti şirkətləri onlarla yaşayış binası inşa etmək imkanına malikdirlər. Bunun nəticəsidir ki, ötən müddət ərzində yüzlərlə bina əsaslı şəkildə yenidən qurulub, mənzillərin sahəsi genişləndirilib, yaşayış binalarının əksəriyyəti möhkəmləndirilib və əlavə mərtəbələr artırılıb, lazımi kommunal-məişət şəraiti yaradılıb. Görülən bütün bu işlər sakinlərin rahatlığının təmin olunması, onların yaşayış şəraitinin daha da yaxşılaşdırılması məqsədi daşıyır.

Qeyd edək ki, muxtar respublikada yaşayış standartlarının davamlı yüksəlişi, mənzil-kommunal sektorunda genişmiqyaslı yenidənqurma tədbirləri, infrastrukturun tamamilə yenilənməsi, qısacası, rahat yaşayış üçün əsas kriteriyaların tam təmin olunması muxtar respublikaya daimi yaşayış üçün gələnlərin də sayını artırıb. Daimi yaşayış üçün Naxçıvanı seçənlərin əsas səbəb kimi göstərdiyi amillər sırasında idarəetmədə insan amilinin diqqət mərkəzində saxlanılması, elektrik, qaz və su təminatının yüksək səviyyədə olması, mənzillərin pulsuz təmir edilməsi, istilik xətləri və radiatorların quraşdırılması, məhəllədaxili abadlıq və təmizlik, evlərin və avtomobillərin mühafizəsi üçün əlavə xərc çəkilməməsi də var. Bütün bunlar onu göstərir ki, daimi yaşayış üçün Naxçıvanın seçilməsi uğurlu islahatların məntiqi nəticəsidir və hazırda daha da intensivləşməkdə olan bu müsbət meyilli miqrasiya prosesi mənzil bazarına ciddi təsir göstərməkdədir.

Bunun nəticəsidir ki, muxtar respublikada tikinti-quruculuq işlərinin həcmi əsas kapitala investisiya qoyuluşlarının mühüm hissəsini təşkil edir. Məsələn, 2016-cı ildə muxtar respublika üzrə bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya qoyuluşlarının həcmi 2015-ci ilə nisbətən 5 faiz artaraq 997 milyon manatdan çox olub. İnvestisiya qoyuluşlarının 921 milyon manatından və ya 92 faizindən bilavasitə tikinti-quraşdırma işlərində istifadə olunması əhalinin mənzil şəraitinin yaxşılaşmasına, abadlaşdırma-bərpa işlərinin genişləndirilməsinə və kənd yerlərində infrastrukturun yenilənməsinə şərait yaradıb.

Əvvəlki illərdə olduğu kimi, 2016-cı ildə də əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması tədbirləri davamlı xarakter alıb. Belə ki, il ərzində 2 ictimai yaşayış binası tikilərək istifadəyə verilib, 9 yaşayış binasında yenidənqurma və əsaslı təmir işləri aparılıb. Qeyd etmək lazımdır ki, ötən il gənc ailələrin mənzillə təmin olunmasına kömək məqsədilə daha bir uğurlu addım atılıb. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 7 noyabr 2016-cı il tarixli Fərmanı ilə “Naxçıvan İpoteka Fondu” Açıq Səhmdar Cəmiyyəti yaradılıb və fondun xətti ilə 951 min manat həcmində kreditlərin verilməsi təmin olunub. Ötən il iyunun 10-da – Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan şəhərində yeni yaşayış binasının açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***“Bu tədbirlər ölkəmizdə həyata keçirilən dövlət-xalq siyasətinin tərkib hissəsidir. Hər bir ölkənin inkişafı üçün, ilk növbədə, ictimai-siyasi sabitlik və iqtisadi inkişaf olmalıdır... Bu gün ulu öndərin yolunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə inkişaf proqramları qəbul olunaraq həyata keçirilir, yeni xəstəxanalar, məktəb binaları tikilir, yollar çəkilir, əhalinin rifahı yaxşılaşdırılır. Yeni yaşayış binalarının tikilməsi və insanların mənzil şəraitinin yaxşılaşdırılması da ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin tərkib hissəsidir”.***

Qeyd etmək lazımdır ki, muxtar respublikamızda yaşayan əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində indiyədək görülmüş işlər cari ildə də davam etdiriləcəkdir. Belə ki, 2017-ci ildə Naxçıvan şəhərinin Həsən Əliyev küçəsindəki 2 nömrəli, “İstiqlal” küçəsindəki 79 nömrəli yaşayış binalarının yenidən qurulması, Kəngərli rayonunda isə 48 mənzilli yaşayış binasının tikintisi nəzərdə tutulub.

**✍ Səbuhi HƏSƏNOV**

## Muxtar respublika sakinlərinin alıcılıq qabiliyyəti artmışdır

***Muxtar respublikada artan əhali tələbatına uyğun olaraq yeni istehsal və xidmət sahələrinin yaradılması, səmərəli məşğulluğun təmini üzrə ardıcıl tədbirlər davam etdirilir. İqtisadi və sosial sahələrin inkişafı üzrə həyata keçirilən mühüm tədbirlər bütün makroiqtisadi göstəricilərin pozitiv meyilliliyini təmin etmiş, yüksək nəticələr əldə olunmuşdur.***



Ötən il muxtar respublikada bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 413,2 manat olmaqla, 1995-ci ildəki göstəricini 26 dəfə üstələmişdir. 2016-cı ildə muxtar respublikada əhali gəlirlərinin həcmi 1995-ci illə müqayisədə 58 dəfə artaraq 1 milyard 825 milyon manat təşkil etmişdir. Bu dövr ərzində hər bir nəfərə düşən əhali gəlirlərinin həcmi isə 43 dəfə artaraq 4086 manata çatmışdır.

2016-cı ildə muxtar respublikada pərakəndə əmtəə dövriyyəsinin həcmi 1995-ci illə müqayisədə 41 dəfə artaraq 1 milyard 506 milyon manatdan, onun hər bir nəfərə düşən həcmi isə 31 dəfə artaraq 3371 manatdan çox olmuşdur. Ümumi əmtəə dövriyyəsinin 1 milyard 450 milyon manatı və ya 96,3 faizi pərakəndə ticarət şəbəkələrinin payına düşmüşdür. Pərakəndə ticarət şəbəkələrində hər bir nəfərə düşən ticarət dövriyyəsi göstəricisinə görə muxtar respublikamız ölkənin digər iqtisadi rayonları ilə müqayisədə ilk yerdə təmsil olunmuşdur.

Bu gün istehsalçı və istehlakçıların qarşılıqlı fəaliyyətinin təmin olunduğu bazar iqtisadiyyatında təhlil edilən mühüm göstəricilərdən biri də pərakəndə ticarət şəbəkələrində satılan məhsulların tərkibində yerli istehsal məhsullarının üstünlük təşkil etməsidir. Bu göstəriciyə görə də Naxçıvan Muxtar Respublikası öz üstün mövqeyini qoruyub saxlamışdır. Belə ki, bu gün muxtar respublikada 120 növü ərzaq, 246 növü qeyri-ərzaq olmaqla, 366 növdə məhsul istehsal olunur. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilməkdədir.

Ötən il muxtar respublikada əhaliyə iaşə şəbəkələrində 56 milyon manatlıq xidmət göstərilmişdir ki, bu da pərakəndə əmtəə dövriyyəsinin 3,7 faizini təşkil etmişdir. 2016-cı ildə iaşə dövriyyəsinin həcmi 2015-ci illə müqayisədə 2,3 faiz artmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələri üzərində nəzarət gücləndirilib

*“Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”də edilmiş dəyişikliyə əsasən müvəqqəti idxal və ixrac gömrük proseduru ilə gömrük sərhədindən keçirilən mal və nəqliyyat vasitələri üzərində nəzarət gücləndirilib. Mart ayının 1-dən tətbiq olunan yeni qaydalara görə gömrük orqanları qarşısında götürdüyü öhdəliyi yerinə yetirməyən, yəni müvəqqəti gətirdiyi və ya apardığı mal və ya nəqliyyat vasitələrini vaxtında qaytarmayan fiziki şəxslər barəsində sərhədkeçmə zamanı məhdudiyyət tədbirləri nəzərdə tutulub.*

Belə ki, dövlət sərhədini keçən şəxs ölkə ərazisinə daxil olarkən onun pasport məlumatları “Sərhədkeçmə zamanı xüsusi diqqət” siyahısında olduğu təqdirdə, sərhəd xidmətçisi şəxsin dövlət sərhədini keçdiyini qeydə aldıqdan sonra həmin şəxsi gömrük orqanı əməkdaşına təhvil verir. Bu zaman mal və nəqliyyat vasitəsinin müvəqqəti ixrac (aparılma) müddətinin pozulması faktı ilə bağlı gömrük xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemində inzibati xəta haqqında iş qeydə alınır və icraat bitənədək şəxs “Xüsusi diqqət siyahısı”ndan çıxarılmır.

Fiziki şəxslər ölkə ərazisini tərk edərkən də mal və ya nəqliyyat vasitəsinin müvəqqəti idxal (gətirilmə) müddətini pozduğuna və ya müvafiq təminat üsullarından istifadə etmədiyinə görə məhdudiyyətlərlə üzləşir. Belə ki, müvəqqəti idxal edilən mal və ya nəqliyyat vasitəsi geri aparılırsa, lakin müvəqqəti gətirilmə müddəti pozulmuşdursa, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq hüquqpozma törətmiş şəxs barəsində qərar qəbul edildikdən və gömrük xidmətinin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemində qeydiyyat aparıldıqdan sonra onun ölkə ərazisini tərk etməsinə icazə verilir.



Müvəqqəti idxal edilən mal və ya nəqliyyat vasitəsi geri aparılmırsa, lakin müvəqqəti gətirilmə müddəti bitməmişdirsə, şəxs tərəfindən Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 258-ci maddəsi ilə müəyyən edilmiş təminat üsullarından biri seçilməli, yaxud da mal və ya nəqliyyat vasitəsi gömrük orqanının müəyyən etdiyi yerlərdə gömrük nəzarəti altında yerləşdirilməlidir. Yalnız bu halda şəxsin adı “Xüsusi diqqət siyahısı”ndan çıxarıla və onun ölkə ərazisini tərk etməsinə icazə verilə bilər.

Şəxs müvəqqəti idxal etdiyi mal və ya nəqliyyat vasitəsini geri aparmırsa və əvvəlcədən verilmiş müddət bitmişdirsə, mal və ya nəqliyyat vasitəsinin yerinin müəyyən olunması istiqamətində zəruri tədbirlər görüldükdən və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq hüquqpozma törətmiş şəxs barəsində qərar qəbul edildikdən sonra onun ölkə ərazisini tərk etməsinə zəmin yaranır.

Əgər şəxs mal və ya nəqliyyat vasitəsini ölkə ərazisinə müvəqqəti ixrac və ya ölkə ərazisindən müvəqqəti idxal etməmişdirsə, yaxud da ölkə ərazisinə müvəqqəti idxal etdiyi mal və ya nəqliyyat vasitəsini müəyyən olunmuş müddət ərzində geri aparırsa, bir sözlə, vətəndaşın pasport məlumatları “Sərhədkeçmə zamanı xüsusi diqqət siyahısı”nda yoxdursa, onun maneəsiz şəkildə gömrük nəzarətindən keçidi təmin olunmaqla ölkə ərazisinə daxil olmasına və ya ölkəni tərk etməsinə icazə verilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Bədən Tərbiyəsi və İdman Günü”nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən, hər il martın 5-i ölkəmizdə “Bədən Tərbiyəsi və İdman Günü” kimi qeyd olunur.*

*5 mart Bədən Tərbiyəsi və İdman Günüdür*

# Naxçıvanda idmanın inkişafına hərtərəfli qayğı göstərilir

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirmiş, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi qayğısına qalmışdır. Ulu öndərin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan verdi. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilmiş, 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Həmin il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişlənmiş, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“İdmanın inkişafı bizim dövlət siyasətimizdir və idman infrastrukturunun yaradılması prosesi davam edir. Biz gələcək illərdə də bu istiqamətdə işlərimizi davam etdirəcəyik ki, hər bir rayonda idmanla məşğul olmaq üçün ən müasir şərait yaradılsın”.***

Son illər ölkə iqtisadiyyatının sürətli inkişafı bədən tərbiyəsi və idmanı da əhatə etmişdir. Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir.

Naxçıvan Muxtar Respublikasında idmanın maddi-texniki bazası xeyli gücləndirilmişdir. Son illər muxtar respublikada 2 olimpiya-idman kompleksi, 2 üzgüçülük mərkəzi, 1 şahmat mərkəzi, 6 Uşaq-gənclər şahmat məktəbi, 9 Uşaq-gənclər idman məktəbi, Atıcılıq Mərkəzi, Atıcılıq Əyləncə Mərkəzi, stadionlar, peyntbol meydançası, yeni olimpiya ağırlıqqaldırma qurğuları, ümumtəhsil məktəblərində müasir idman zalları və digər idman avadanlıqları quraşdırılmışdır. Ötən dövrdə muxtar respublikada idmanın təşkilati-hüquqi bazasının yaradılması və inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanmış, Boks, Güləş, Karate-do, Şərq Döyüşü Sənəti, Şahmat, Futbol, Voleybol, Basketbol, Paralimpiya, Hava və Ekstremal İdman Növləri və Atıcılıq federasiyaları yaradılmışdır. Bundan başqa, “Araz-Naxçıvan” Peşəkar Futbol Komandasının fəaliyyəti bərpa olunmuş və Əlincə Stolüstü Tennis Klubu fəaliyyətə başlamışdır.

Bu gün muxtar respublikada gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması işləri diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman mühiti gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir. Bu gün muxtar respublikamızda, ümumilikdə, 40 min nəfərə yaxın yeniyetmə və gənc aktiv şəkildə idmanla məşğul olur. Onların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, yeni idmançılar nəsli yetişir, müxtəlif idman növləri üzrə uğurların sayı daha da artır.

2016-cı ildə də idmanın kütləviliyinə nail olunması, yeniyetmə və gənclərin idmana cəlb olunması istiqamətində bir sıra işlər görülmüş, məktəblilərin spartakiadasının keçirilməsi, zonalar üzrə müxtəlif idman yarışlarının təşkili davam etdirilmişdir. Muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilmiş, idmançılarımız dünya çempionatlarında 1, Avropa çempionatlarında 5, beynəlxalq turnirlərdə 63, Azərbaycan birinciliklərində 39 medal olmaqla, ümumilikdə, 108 medal qazanmışlar. Həmçinin sağlamlıq imkanları məhdud uşaq və yeniyetmələrin idman bölmələrinə cəlbi, mövcud idman obyektlərindən ödənişsiz istifadəsi təmin olunmuş, məktəblilərin fiziki möhkəmliyinin artırılması, ildə iki dəfə olmaqla, “Vətənin müdafiəsinə hazıram” çoxnövçülüyü və “Şahin”, “Sərhəd” hərbi idman oyunları keçirilmişdir. İdman yarışlarında fərqlənmiş idmançılar haqqında məlumat bankı yaradılmış, onların uğurları kütləvi informasiya vasitələrində işıqlandırılmışdır.

Muxtar respublikada qadınların idmana cəlbi istiqamətində də mühüm işlər görülür. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən “Xatun” Bədii Gimnastika İdman Klubunda hazırda 150-yə yaxın qız bədii gimnastika ilə məşğul olur. Həmçinin stolüstü tennis bölməsinə qızlar təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilmiş müşavirədə verilmiş tapşırıqlara əsasən Şərur Olimpiya-İdman Kompleksində qızların idmana cəlb edilməsi, idmanın kütləviliyinə nail olunması məqsədilə üzgüçülük, bədii gimnastika və həndbol üzrə bölmələr fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən bölmələrdə fəaliyyət göstərən məşqçi-müəllimlərin ixtisasartırma kurslarına göndərilməsi işi də davam etdirilir.

Yaradılan müasir idman infrastrukturu Naxçıvanın müxtəlif beynəlxalq yarışlara ev sahibliyi etməsi üçün geniş imkanlar açmışdır. Son illər bu imkanlardan lazımınca istifadə olunur, dünyanın müxtəlif ölkələrindən gələn yüzlərlə idmançı muxtar respublikada keçirilən yarışlarda iştirak edir. Naxçıvan Muxtar Respublikasında 2003-cü ildə 20 yaşa qədər şahmatçılar arasında dünya çempionatı, 2011-ci ildə karate üzrə “Naxçıvan Open” beynəlxalq turniri, 2011-ci ildən etibarən hər il mütəmadi olaraq ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə “Naxçıvan Kuboku” uğrunda beynəlxalq turnirlər, beynəlxalq şahmat festivalları, 2012-ci ildə üzgüçülük üzrə Azərbaycan çempionatı və MMA Qran-Pri üzrə Şərqi Avropa çempionatı, 2014-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş qol-bol paralimpiya idman növü üzrə beynəlxalq turnir, 2014-cü ildə veteranlar arasında ağırlıqqaldırma üzrə “Dünya Kuboku” uğrunda yarış, 2015-ci ildə kikboksinq üzrə “Azərbaycan Kəməri” uğrunda yarış, 2016-cı ildə Usta ağır atletlər arasında Avropa çempionatı, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə karate üzrə Beynəlxalq turnir, ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda paralimpiya festivalı, peşəkarlararası kəmər müdafiəsi uğrunda döyüşlər və digər mötəbər idman tədbirləri keçirilmiş, idmançılarımız muxtar respublikanı və ölkəmizi layiqincə təmsil edərək yüksək nəticələr əldə etmişlər.





Gələcəyimiz olan gənclərin fiziki cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Ona görə də muxtar respublikada bu sahənin inkişafı mühüm və qabaqcıl istiqamət kimi müəyyənləşdirilmişdir. Gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələr də məhz bu məqsədə xidmət edir. Bu il yanvarın 14-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda müşavirə keçirilmiş, müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov aid təşkilatlara konkret tapşırıqlar vermişdir.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi qarşıya qoyulan bu tapşırıqların icrasını diqqət mərkəzində saxlayacaq, istedadlı idmançılar nəsli yetişdiriləcəkdir.*

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

# İnsan ən qiymətli sərvətdir

## *Sədərək Rayon Mərkəzi Xəstəxanasında bu amil diqqət mərkəzindədir*

*Sədərək kəndinin mərkəzində bu böyük yaşayış məntəqəsinin, demək olar ki, çox yerindən görünən bir bina ucalır. Binanın daimi sakinləri Hippokrat andı içmiş ağxalatlı peşə sahibləridir. İnsan sağlamlığının keşiyində duran bu insanlara öz vəzifələrini layiqincə yerinə yetirmək üçün binada hərtərəfli şərait yaradılıb. Xəstəxana binası 2010-cu il oktyabr ayının 5-də ölkə Prezidenti cənab İlham Əliyevin xeyir-duası ilə fəaliyyətə başlayıb:* ***“Mən arzu edirəm ki, burada bütün işlər yüksək səviyyədə görülsün. Ümid edirəm ki, bu xəstəxanaya müraciət edənlərin sayı çox olmayacaqdır. Çünki insanlar sağlamdır. Gözəl təbiət, gözəl iqlim bu sağlamlığa çox müsbət təsir göstərir. Amma, əgər ehtiyac yaranarsa, əmin olmaq istəyirəm ki, bu xəstəxanada ən yüksək tibbi xidmət və qayğı göstəriləcəkdir”.***

Xəstəxananın baş həkimi Kəmalə İbrahimova deyir ki, son illər muxtar respublikamızda nail olunmuş sosial-iqtisadi inkişafın bəhrələrini Sədərək rayonunda bütün sahələrdə görmək olar. Dövlətimizin sərhəd bölgəsinə göstərdiyi belə qayğı rayonun ümumi inkişafına böyük təsirini göstərir. Bu xəstəxana binası da sərhədçi həyatı yaşayan sədərəklilərə göstərilən həmin qayğının təcəssümüdür. Kollektivimiz də çalışır ki, tapşırılan vəzifənin öhdəsindən yüksək səviyyədə gəlsin. Görkəmli səhiyyə təşkilatçısı N.Semaşko deyirdi ki, insan ən qiymətli sərvətdir. Onun sağlamlığı keşiyində durmaq şərəfli bir işdir və bu vəzifənin öhdəsindən gələn insanlar yüksək qiymətə layiqdirlər.

Zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət olan səhiyyə ocağı 26 çarpayılıqdır. Müasir tibbi avadanlığın quraşdırıldığı xəstəxanada üç şöbə – Stasionar, Poliklinika və Təcili yardım şöbələri fəaliyyət göstərir.

Yaradılan imkanlardan səmərəli istifadənin nəticəsidir ki, xəstəxananın fəaliyyətindən razılıqla danışılır, sərhəd bölgəsinin sakinləri onların sağlamlığının keşiyində duran ağxalatlı peşə sahiblərinə minnətdarlıq edirlər. Elə xəstəxananın foyesində görüşdüyümüz Tofiq Əsgərli qəzetdən gəldiyimizi bilib bizə yaxınlaşır, hal-əhval tutur, zarafatla deyir:

– Bir vaxtlar deyirdilər ki, heç kimin yolu xəstəxanaya düşməsin. Burada iki məna var: biri odur ki, xəstələnməyəsən. Onu bu gün də hamı istəyir ki, xəstələnməsin. İkincisi isə illər qabaq xəstəxanalarımızın nə vəziyyətdə olduğunu yaxşı xatırlayırıq. Necə deyərlər, sağlam adam həmin xəstəxanalara girəndə az qala xəstə çıxırdı. Bir də ki bu xəstəxanaya sağlam adamların gəlməsi də zəruridir. Çünki hər bir insan ildə bir-iki dəfə özünü müayinə etdirməlidir.

Baş həkim söhbətə qoşularaq bildirir ki, müntəzəm olaraq əhali arasında maarifləndirmə tədbirləri aparırıq. Xəstəxananın həkim briqadası bu işdə fəallıq göstərir. Məqsəd ondan ibarətdir ki, insanlar, ilk növbədə, özləri özlərinin həkimi olsunlar, müəyyən tibbi prosedurları bilsinlər, ilk tibbi yardım göstərməyi bacarsınlar.

Xəstəxananın 2016-cı ildəki fəaliyyəti barədə danışan Kəmalə İbrahimova deyir ki, il ərzində 187 xəstə stasionar müalicə alıb, onların 83-ü terapevtik müalicə olub. 6 cərrahiyyə əməliyyatı aparılıb. 47 uşaq dünyaya gəlib.

Baş həkimin sözlərinə görə, uşaqlara tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaq üçün kollektiv əlindən gələni əsirgəmir. 3540 uşaq dispanser qeydiyyatına götürülüb.

“Məktəblərlə sıx əlaqə saxlayır, müəllim və şagirdlər arasında həm də maarifləndirici tədbirlərə geniş yer veririk. Ötən il 1190 şagirdi profilaktik müayinədən keçirmişik”, – deyən Kəmalə İbrahimova onu da diqqətimizə çatdırdı ki, risk qrupuna daxil olan ürək-damar xəstəliklərindən əziyyət çəkən 50-55 yaşlı əhali arasında dispanserizasiya aparılıb, aprel ayından noyabr ayınadək 1186 nəfər tibbi müayinədən keçib, bu yaş qrupu arasında əhalinin qanında xolesterin yoxlanılıb.

Öyrəndik ki, Azərbaycan torpaqları uğrunda əlil olan 142 nəfər vətəndaş profilaktika məqsədilə tibbi müayinədən keçirilib.

Xəstəxanada qanvermə aksiyalarının təşkilinə də diqqət yetirilir. Ötən il könüllü olaraq 27 nəfərdən 10 litr qan götürülüb.

Virus C və B hepatitlərinə yoluxmanın qarşısının alınması məqsədilə ana və uşaqların, stomatoloji müalicə alan xəstələrin ekspres testlə yoxlanılması tədbirlər planına salınıb.

Xəstəxanada çalışan və mehriban bir ailəni xatırladan kollektiv üzvləri ilə həmsöhbət olduq. Stomatoloq Ərrəhman Nəcəfov bildirdi ki, həm həkim və tibb işçiləri, həm də Sədərək camaatı dövlətimizin bizə göstərdiyi qayğıdan xeyli razıdır. Bu gün Sədərək sakinlərinin müayinə və ya müalicədən ötrü qonşu Şərur rayonuna, ya da Naxçıvan şəhərinə getməyə ehtiyacları qalmayıb. Bunun üçün xəstəxanada hər cür şərait var. Kollektivimiz bu şəraitdən səmərəli istifadə edir, sədərəklilərin sağlamlığı keşiyində layiqincə dayanır.

Sədərək kənd sakini Məmmədəli Sultanov da sərhəd bölgəsinin sakinlərinə göstərilən tibbi xidmətin yaxşı səviyyədə qurulduğunu deyir.

Bu səhiyyə müəssisəsində gördüklərimizdən, həmsöhbət olduğumuz insanların dediklərindən belə qənaətə gəldik ki, xəstəxananın açılış mərasimində ölkə Prezidentinin dediyi sözlər kollektivin fəaliyyət proqramına çevrilib:

***“Hər bir səhiyyə müəssisəsində yüksək səviyyəli tibbi xidmət göstərilməlidir. İnsanlar sağlam olmalıdır. İnsanlar, hər bir vətəndaş – mən dəfələrlə bunu qeyd etmişəm, bir də demək istəyirəm, – ildə bir dəfə müayinədən keçməlidir. İndi bunun üçün hər bir şərait vardır. Rayonun hər bir sakini ildə bir dəfə bu xəstəxanaya gəlməlidir, müayinədən keçməlidir, analizlərini verməlidir və bilməlidir ki, onun səhhəti, sağlamlığı hansı səviyyədədir... Bütün bunlar həm xəstəliyi vaxtında müəyyən etmək, eyni zamanda insanların sağlamlığı, sağlam həyat tərzi üçün lazımdır”.***

**Muxtar MƏMMƏDOV**

*"Kültəpə" adlı qədim yaşayış yerində aparılan arxeoloji qazıntılar nəticəsində Neolit və Eneolit dövrlərinə aid iy və cəhrənin, Tunc dövrünə aid sadə toxuculuq dəzgahının tapılması Naxçıvan diyarında yaşayan əhalinin toxuculuqla hələ ibtidai icma quruluşunun son dövrlərindən məşğul olduğunu sübut edir. Erkən orta əsrlər dövründən başlayaraq müstəqil fəaliyyət növündən olan xalçaçılıq sonrakı dövrlərdə Azərbaycan qadınlarının əsas məşğuliyyət sahələrindən birinə çevrilmişdir. Heç də təsadüfi deyildir ki, X-XIII əsrlərə aid mənbələr Azərbaycanın bir çox bölgələri ilə yanaşı, Naxçıvanı da əsas xalçaçılıq mərkəzi kimi xarakterizə edirlər. Bu dövrdə Naxçıvan şəhəri artıq "zili" və "xalı" tipli xalça məmulatlarının əsas istehsal və satış mərkəzlərindən biri kimi şöhrət qazanmışdı. Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da xalçaçılıq sənəti özünün ən yüksək inkişaf səviyyəsinə XVIII-XX əsrlərin əvvəllərində çatmışdır. Bu, ilk növbədə, xarici bazarlarda xalça məmulatlarına tələbatın kəskin şəkildə artması ilə bağlı idi.*



"Şərq qapısı"nın elektron poçtundan

# Qədim Naxçıvan xalçaçılıq mərkəzi kimi şöhrət qazanıb

## *Yüksəkkeyfiyyətli toxunuşu, naxışlarının dəqiqliyi və rənglərinin şuxluğu ilə seçilən Naxçıvan xalçaları bir sıra xarici ölkələrdə nümayiş etdirilib*

Naxçıvan diyarında xalçaçılıq sənətinin inkişafı, ilk növbədə, bu sənət sahəsinin əsas xammal mənbəyi olan qoyunçuluqla sıx bağlı idi.

XVIII əsrin birinci yarısında Naxçıvan diyarında qoyunçuluğun vəziyyəti haqqında "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə verilən məlumatlar əsasında müəyyən mühakimə yürütmək olar. Doğrudur, "Dəftər"də diyarda bəslənilən qoyunların sayı haqqında heç bir statistik məlumat verilmir. Lakin ayrı-ayrı yaşayış məntəqələrindən "qoyun vergisi", "otlaq vergisi", "qışlaq vergisi", "yaylaq vergisi", "ot üşürü" adı altında xüsusi vergilərin toplanılması heyvandarlığın bu sahəsinin geniş yayılması haqqında aydın təsəvvür yaradır. "Dəftər"də hər bir yaşayış məntəqəsindən toplanan vergilər haqqındakı məlumatlar əsasında apardığımız hesablamalar göstərir ki, bu dövrdə Naxçıvan diyarının 176 yaşayış məntəqəsində əhali qoyunçuluqla məşğul olurdu və buna görə 1727-ci ildə 100 min 457 axça həcmində vergi ödəmişdi. Toplanan vergilərin miqdarından və yaşayış məntəqələrinin sayından görünür ki, qoyunçuluq sancağın Azadciran nahiyəsində daha çox inkişaf etmişdi.

Naxçıvan diyarında bəslənən qoyun və keçilərin sayı haqqında ilk statistik məlumata "Naxçıvan əyalətinin statistik təsviri"ndə rast gəlirik. Əslində, xanlıqlar dövrünün sonu və rus müstəmləkəçiliyinin başlanğıc dövrünü əhatə edən bu məlumatdan aydın olur ki, bu dövrdə Naxçıvan dairəsində 15 min, Ordubad dairəsində 10 min, Şərur mahalında isə 13 min 686 baş qoyun və keçi saxlanılırdı. XIX əsrin ikinci yarısında xalça məmulatlarına tələbatın kəskin şəkildə artması Naxçıvan diyarında da qoyunçuluğun inkişafına ciddi təsir göstərmişdi. 1849-cu ilin məlumatına görə, Naxçıvan qəzasında qoyun və keçilərin sayı 42 min başdan bir qədər çox idi. Əslində, bu dövrdə Naxçıvan qoyun və keçilərin sayına görə Azərbaycanın digər qəzalarından çox geridə qalırdı. Müqayisə üçün göstərək ki, elə bu dövrdə Yelizavetpol (Gəncə) qəzasında saxlanılan qoyun və keçilərin sayı 441 min 180 başa çatırdı. Bununla belə, XIX əsrin ikinci yarısında xalça məmulatına tələbatın sürətlə artması Naxçıvan diyarında da qoyunçuluğun inkişafına ciddi təkan vermişdir. Artıq XIX əsrin 70-ci illərində burada saxlanılan qoyun və keçilərin sayı, həmin əsrin ortaları ilə müqayisədə, təxminən, dörd dəfə artaraq 160 min baş olmuşdur.

Naxçıvan diyarında, əsasən, mazıx və balbas cinsli qoyunlar yetişdirilirdi. Mazıx cinsli qoyunların yunu bir qədər qaba olub, qızılı və qəhvəyi rəngə çaldığından yerli əhali onu "qızıl qoyun" adlandırırdı. Mazıx qoyunlardan fərqli olaraq, balbas cinsli qoyunların yunu ağ rəngdə olub, xalça toxuculuğu üçün daha yararlı hesab edilirdi. Hər iki cinsdən olan qoyunlar Naxçıvanla yanaşı, İrəvan qəzasında, habelə qonşu İran və Türkiyədə də yayılmışdı. V.Qriqoryevin verdiyi məlumatdan aydın olur ki, XIX əsrin 30-cu illərində Naxçıvan diyarında məhz bu qoyun



cinsləri saxlanılırdı. Onun yazdığından o da məlum olur ki, buradakı "qoyun və qoçların hamısı quyruqludur, onların yunu orta keyfiyyətlidir və daha çox evlərdə kobud mahud, xalça, kilim və at çulu hazırlanmasına sərf edilir". İ.Şopen yazırdı ki, İrəvan və Naxçıvan bölgələrində saxlanılan qoyunların hər başından ildə 3,8 batman və yaxud 4,5 funt yun almaq mümkündür. Bunu əsas tutan tədqiqatçılardan biri XIX əsrin 30-40-cı illərində Naxçıvan diyarında saxlanılan 69 min 953 baş qoyun və keçidən ildə 7772 pud yun əldə edilməsi fikrini irəli sürür.

Naxçıvanda xalçaçılar əldə etdikləri yundan xalça toxumağa başlamazdan əvvəl onu bir neçə mərhələdən keçirməklə emal edirdilər. Bu mərhələlərə yunun yuyulması, qurudulması, daranması, əyirilməsi, sarınması və boyanması daxildir. Yun yuyulduqdan sonra əl iyi və ya əl cəhrəsi vasitəsilə həyata keçirilən əyirmə prosesi başlanırdı. İpin bundan sonrakı emal mərhələsi onun hansı məqsədlə istifadə ediləcəyindən asılı idi. Müxtəlif növ xalça məmulatlarının toxunması zamanı dörd növ ipdən – ariş, arğac, çin və qıraq ipindən istifadə edilirdi. Çin və arğac ipləri ikiqat, ariş və qıraq ipləri isə üçqat əyirilirdi. Bundan sonra kələf halına salınmış iplərin boyanması prosesi başlayırdı.

Yun ipin boyanmasından sonra xalça məmulatlarının toxunuşuna başlanılırdı. Bu iş olduqca bəsit quruluşa malik olan dik hanada həyata keçirilirdi. Adətən, hana bir cüt ağac qol, onları köndələn vəziyyətdə birləşdirən alt və üst olmaqla, iki ədəd ox və daban paralarından ibarət idi. Toxuma prosesində ağacdan və ya dəmirdən hazırlanmış çoxdişli həvə, qayçı, qırmaqlı bıçaq, kirkit və bu kimi alətlər işlədilirdi.

Naxçıvanda xalça istehsalı XVIII əsrdən başlayaraq yeni, daha yüksək inkişaf dövrünə qədəm qoymuşdur. Xarici bazarlarda xalça məmulatına tələbatın kəskin şəkildə artması bu sənət sahəsinin xüsusilə XIX əsrdə daha geniş vüsət almasına gətirib çıxarmışdır.

XIX əsrin ortalarına aid statistik məlumatlardan aydın olur ki, bu dövrdə Naxçıvan diyarında xeyli miqdarda xovlu və xovsuz xalça məmulatları istehsal edilmişdir. 1845-ci ilə aid statistik məlumat göstərir ki, həmin il burada 1050 ədəd xalça, 3000 ədəd at çulu, 2500 ədəd keçə, 5000 ədəd çuval, 460 ədəd məfrəş, 10



min ədəd yun corab, 20 min arşın mahud toxunmuşdur.

Daxili və xarici bazarlarda xalça məmulatlarına tələbatın kəskin şəkildə artması bu sənətin xarakterinə də ciddi təsir göstərmişdir. Uzun müddət ev peşəsi səciyyəsi daşıyan xalçaçılıq XIX əsrdən başlayaraq daha çox bazar üçün işləyən sənətkarlıq sahəsinə çevrilmişdir. Maraqlıdır ki, kapitalist istehsalının sürətlə inkişaf etdiyi XIX əsrin ikinci yarısında sənət istehsalının əksər sahələrinin dərin tənəzzülə uğradığı bir şəraitdə xalça məmulatı istehsalında yüksəliş müşahidə edilirdi. Bu, həmin əsrin sonlarında Cənubi Qafqazda xalçaçılıq sənətinin vəziyyətini öyrənmiş tədqiqatçıların hesabatında aydın şəkildə əks olunmuşdur. Statistik məlumatlar göstərir ki, 1845-ci ildə Naxçıvan qəzasında istehsal edilmiş 1050 ədəd xalçanın 400, 3 min ədəd çuvalın 1500, 5 min çuvalın 2 min, 10 min yun corabın 5 min ədədi satılmışdır.

Naxçıvan diyarında XVIII-XIX əsrin əvvəllərində toxunmuş xeyli sayda xalça məmulatı nümunəsi dövrümüzə qədər gəlib çatmışdır. Apardığımız çöl tədqiqatları zamanı Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri, Şərur, Babək, Culfa, Kəngərli, Ordubad, Şahbuz və Sədərək rayonlarında tədqiq etdiyimiz dövrdə toxunmuş şəxsi kolleksiyalarda saxlanılan 24 ədəd yun xovlu xalça, 4 ədəd yun xovsuz zili, 2 ədəd duz torbası, 2 ədəd xurcun, 1 ədəd məfrəş üzü, 1 ədəd şəddə və 1 ədəd kilim aşkar edilərək elmi ictimaiyyətə təqdim edilmişdir. Tədqiqat zamanı aydın olmuşdur ki, şəxsi kolleksiyalarda saxlanılan Naxçıvan qrupuna aid olan ən qədim xovlu xalça 1800-cü ildə Şərur rayonunun Maxta kəndində toxunmuşdur.

Şəxsi kolleksiyalarda saxlanılan xovlu xalçaların toxunma tarixinə dair araşdırmalar XIX-XX əsrlərdə Naxçıvan diyarında xalçaçılığın inkişaf dinamikası haqqında müəyyən fikirlər söyləməyə imkan yaradır. Belə ki, haqqında bəhs etdiyimiz 24 xovlu xalçanın 15-i 1900-cü ildə toxunmuşdur. Fikrimizcə, bu heç də təsadüfi hal deyil. Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan diyarında da xalçaçılığın məhz bu dövrdə özünün ən yüksək inkişaf mərhələsinə çatdığını göstərir.

Tədqiq etdiyimiz dövrdə Naxçıvan diyarında şəddə, vərni və zili kimi xovsuz xalçalarla yanaşı, müxtəlif çeşidli xovlu xalçaların toxunuşu da geniş yayılmışdı. 1800-cü ildə 565x93, 1850-ci ildə 256x110, 1870-ci ildə 218x140 və 477x116 ölçülərdə toxunmuş xalçaların nümunə göstərmək olar. Bu xalçaların xeyli hissəsi hazırda Naxçıvan şəhərindəki Xalça Muzeyində nümayiş etdirilir.

1850-ci ildə toxunmuş və xalq arasında "Sinili" adlandırılan xalçanın bədii quruluşu zəngin ara sahə və haşiyə hissəsindən ibarətdir. Onun ara sahəsindəki "siniyəbənzər" medalyonların içərisində açıq-qırmızı, qəhvəyi, kərpici, çəhrayı, açıq-yaşıl, mavi, yasəməni, sürməyi rənglərlə işlənmiş gül-çiçək, yarpaq motivləri vardır. Medalyonlar yerliyi zoğalı, şəkəri, açıq-qırmızı, kərpici, çəhrayı, şəkəri-yasəməni rənglərlə tərtib edilmişdir. Onun kənarlarını qəhvəyi, açıq-qırmızı, açıq-yaşıl, mavi, şəkəri, sarı, açıq-qəhvəyi rənglərlə işlənmiş haşiyələr əhatə edir. Ara sahənin boşluqları dörd, altı, səkkiz ləçəkli gül-çiçək, ağac, rombvarı, kvadratşəkilli, "X"-ə bənzər və digər klassik elementlərlə doldurulmuşdur. Ara sahənin sağ, sol, yuxarı, aşağı və mərkəz hissələrində stilləşmiş ceyran, quş təsvirləri vardır. Medalyonların kənarlarındakı haşiyələrdə güllü-çiçəkli budaqlar və yarpaqlar işlənmişdir. Haşiyələrdəki digər elementlər açıq-yaşıl, sarı, şəkəri, açıq-qırmızı, sürməyi, açıq və tünd qəhvəyi, mavi, göy, qara, xına rəngi və başqa rənglərlə işlənmişdir. Xalçanın sürməyi yerlikli ana haşiyəsi zoğalı, sarı, açıq-qırmızı, narıncı, açıq-yaşıl, tünd və açıq-qəhvəyi, göy, mavi, şəkəri rənglərlə işlənmiş gül-çiçək, yarpaq motivləri və budaqlarla bəzədilmişdir. Haşiyənin yerliyi bəzi yerlərdə xına rəngindədir. Ara haşiyə hər iki tərəfdən içərisində üçləçəkli, dördləçəkli gül-çiçək və spiralşəkilli budaqlarla bəzədilmiş qırmızı yerlikli bala haşiyələrlə əhatə olunmuşdur. Kənar bala haşiyə xaricdən, digər bala haşiyə isə da-



xildən içərisində dalğavarı xətlər işlənmiş şəkəri yerlikli zəncirlərlə əhatə edilmişdir. Ana haşiyənin kənarları ağ rəngli elementlərlə tamamlanır. Xalça özünəməxsus rəng tərtibatı ilə seçilir. Naxçıvan xalçaları üçün səciyyəvi olan rənglər bu xalçada yüksək peşəkarlıqla cəmlənmişdir. Xalçanın xovu, ərişi yun, arğacı pambıqdır.

Naxçıvan diyarının müxtəlif bölgələrində istehsal edilmiş xalça məmulatları öz sənətlərinin kamil ustası olan azərbaycanlı qadınlar tərəfindən toxunmuşdur. Onlardan XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Naxçıvan qəzasının Cəhri kəndində yaşamış Piriyeva Qumru Cəfər qızının, Kükü kəndində yaşamış Məmmədova Qönçə Heydər qızının, Kolanı kəndində yaşamış Əsmər Hüseynəli qızının, Ordubadın Nüsnüs kəndində yaşamış Ramazanova Xanpəri Musa qızının adları müasir dövrümüzədək çatmışdır.

*Özlərinin yüksəkkeyfiyyətli toxunuşu, naxışlarının dəqiqliyi və rənglərinin şuxluğu ilə seçilən Naxçıvanın xovlu və xovsuz xalça məmulatları hələ XIX əsrin ikinci yarısından başlayaraq Rusiya imperiyasının daxilində və bir sıra xarici ölkələrdə təşkil edilən sərgilərdə dəfələrlə nümayiş etdirilmişdir: 1857-ci, 1889-cu və 1901-ci illərdə Tiflisdə Qafqaz Kənd Təsərrüfatı və Sənaye Məhsulları Sərgisində, 1862-ci ildə Londonda təşkil edilmiş Ümumdünya sərgisində, 1913-cü ildə Sankt-Peterburqda keçirilmiş II Ümumrusiya kustar sənayesi sərgisində Naxçıvan diyarında istehsal edilmiş palazlar, xovlu xalçalar, kilimlər, cecimlər, zililər, heybə və xurcunlar nümayiş etdirilmişdir.*

**Vadi̇di MURADOV**
***"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri, professor***

***Qeyd:*** *Oxucularımızın diqqətinə çatdıraq ki, müəllifin bu yazısı "Beynəlxalq İnformasiya Tədqiqatları və Təhlil" jurnalında da çap olunub.*

# Mənalı aktyor ömrü



*Teatr aləmində elə aktyorlar var ki, onları nəinki tamaşaçı sevir, öz həmkarları, sənət yoldaşları da bu cür səhnə ustaları ilə təraf-müqabil olmağa, onunla birlikdə səhnəni bölüşməyə can atırlar. 134 illik tarixi olan Naxçıvan teatrında belə aktyorlar çox olub və sevindirici haldır ki, bu gün də var. Xalq artisti Rza Xudiyev kimi.*

30 ildir ki, ömrünü Naxçıvan teatrına bağlayan Rza Xudiyev peşəkar aktyordur. Teatr səhnəsində yaratdığı obrazlar bir-birindən fərqlənsə də, bir insan kimi Rza Xudiyev 30 ildə dəyişməyib. Onu tanıyanlar yenə də sabit xarakterli, səmimi olduğunu deyirlər. İndiyədək hələ heç bir rejissor ona tapşırılan roldan narazı qalmayıb. Məhz buna görə də Naxçıvan tamaşaçısının böyük mənada “Teatr” deyildikdə birinci sırada göz önünə gətirdiyi aktyorlardan biri də Rza Xudiyevdir. Bəlkə də, o, teatrda yeganə aktyordur ki, heç vaxt rejissorun verdiyi mizanları müzakirə etmir. (Adətən, aktyorlar bu barədə səbirsizlik nümayiş etdirirlər. Hətta rol oynadıqları tamaşalarda özlərini rejissor kimi də aparırlar). “Mən aktyoram, verilən tapşırığı yerinə yetirməliyəm. Əgər pis olsa, mizanı rejissor özü dəyişər” – bu, Rza Xudiyevin sənət prinsipidir. Maraqlı burasıdır ki, yerli rejissorlar çox az hallarda məşq vaxtı səhnəyə “endikdən” sonra bu aktyora mizan verirlər. Çünki stolüstü məşqlərdə Rza Xudiyev öz obrazının mizan səhnəsini düzgün işləyir və səhnəyə çıxanda, bir növ, hazır olur.

Aktyor ötən illərdə 70-dən artıq obraz yaradıb. Hər biri də özünəməxsus şəkildə, maraqlı, bir-birindən fərqli. Adətən, rejissorlar ona tarixi qəhrəmanların obrazını təklif etsələr də, o, istənilən rolun öhdəsindən ustalıqla gəlir. Ən çox sevdiyi obraz Nazim Hikmətin “Kəllə” pyesindəki Doktor Dalbanezodur. Sadə həyat sürən alimin yaşadığı dramatik və faciəvi həyat onu yaradan aktyorun ifasında, doğrudan da, real alınır.

Rza Xudiyev həm də bir neçə filmə çəkilən aktyor kimi də Naxçıvan teatrının tarixinə düşüb. “Şahid qız”, “Mən sizi dünyalar qədər sevirdim”, “Süreyya” filmlərində yaddaqalan obrazlar yaradıb. Son illərdə isə yalnız Naxçıvanda çəkilən “Tale yükü” filmində rol alıb. Amma daha çox teatra bağlı olan aktyor bu sənət məbədinin səhnəsində “Şah Qacar”da Cəfərqulu xan, “Nadir şah”da Şah Təhmas (1997-ci il) və Nadir şah (2016-cı il), “Şeyx Sənan”da Şeyx Sənan, “İblis”də Arif, “Qurtuluş dastanı”nda Heydər Əliyev, “Əlincə qalası”nda Əmir Teymur kimi fundamental obrazlar yaradıb. Ürəkdən bağlandığı Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktorluğu indi ona həvalə edilib.

Mart teatr ayıdır. Çünki milli teatrımız bu ayın 10-da yaradılıb. Beynəlxalq Teatr Günü isə martın 27-dir. Hətta ulduz təqviminə görə, mart ayında anadan olanlar incəsənətə, teatra, musiqiyə meyillidirlər. Xalq artisti Rza Xudiyevin ad günü martın 5-dir. Bu, bir təsadüfdür, ya taledir – bunu biz bilmirik. Amma bu gün Naxçıvan teatrının müasir tarixini yaradan aktyorlardan olan Xalq artistinin 55 yaşı tamam olur. 5 mart – 55 yaş. Bundan sonra gənc qəhrəmanların obrazını yaratmaq estafetini teatrda çalışan gənclərə həvalə etsə də, hələ sənətə olan sevgisini və bağlılığını heç kəslə bölüşmək istəmir. Əksinə, yaxşı mənada, hər kəsi “yaradıcılıq duelinə” çağırır. Həyatda və sənətdə uğurlar sizə, Rza Xudiyev.

**Səməd CANBAXŞIYEV**

# Azərbaycan birinciliyində uğur qazanan idmançılar mükafatlandırılıb

***Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasında keçirilən tədbiri federasiyanın sədri Rövşən Məmmədov açaraq bildirib ki, bu gün ölkəmizdə, eləcə də muxtar diyarımızda idmanın inkişafına xüsusi diqqət yetirilir. Bununla bağlı idman yarışları təşkil edilir, gənclərin idmanın istənilən sahəsi ilə məşğul olmaları üçün müvafiq şərait yaradılır. Muxtar respublikamızda fəaliyyət göstərən idman federasiyaları dövlətin gənc idmançılar üçün yaratdığı əlverişli şəraitdən lazımınca istifadə edir və nəticədə, idman sahəsində uğurlarımız ildən-ilə artır.***

Bildirilib ki, hazırda Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının nəzdində 2 klub və 7 rayon bölməsində fəaliyyət göstərən 64 qrupda 682 idmançı məşqlərdə iştirak edir. Bunlardan 280-i qız, 402-si isə oğlanlardır.

Federasiyanın sədr müavini İntiqam Rəhimov bu il fevralın 16-18-də keçirilən Azərbaycan birinciliyi barədə məlumat verib. Qeyd olunub ki, Bakı şəhərində keçirilən yüngül atletika üzrə 2000-2001-ci illər təvəllüdlü oğlan və qızlar arasında Azərbaycan birinciliyində Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının 12 nəfər yeniyetmədən və 3 məşqçi-müəllimdən ibarət yığma komandasının üzvləri 60-200, 400-800, 1500-3000 və 4x200 metr estafet yarışında öz qüvvələrini sınayıblar. Qızlardan ibarət komandanın üzvləri istər fərdi, istərsə də komanda yarışında yüksək nəticə göstərərək uğur qazanıblar.

Yüngül Atletika Federasiyası “Rabitəçi” klubunun idmançısı Telli Abbasova gənc idmançılar üçün yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq edib.

Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov bu il yanvar ayının 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” barədə keçirilən müşavirədə Ali Məclis Sədrinin idman federasiyalarının muxtar respublikada idman növlərinin inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idmanın kütləviliyinin artırılması sahəsində fəaliyyətlərini gücləndirmələri ilə bağlı verdiyi tapşırıqların layiqincə yerinə yetiriləcəyini bildirib.

Sonda Azərbaycan birinciliyində yer tutmuş idmançılara Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının Fəxri Fərmanı və qiymətli hədiyyələri, yarışda iştirak edən digər idmançılara isə həvəsləndirici hədiyyələr təqdim olunub.

# Boks üzrə birincilik başa çatıb

***Şərur Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının Şərur rayon bölməsinin birgə təşkilatçılığı ilə 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yeniyetmə və gənclər arasında boks üzrə Şərur rayon açıq birinciliyi keçirilib.***

Yarışda Şərur idmançıları ilə yanaşı, Naxçıvan şəhərinin, Kəngərli və Sədərək rayonlarının idmançıları da öz qüvvələrini sınayıblar. Ümumilikdə, 50-yə yaxın dəri əlcək sahibi 15 (26, 28, 34, 36, 38, 40, 42, 46, 48, 50, 54, 57, 60, 75 və 91 kiloqram) çəki dərəcəsində qələbə uğrunda mübarizə aparıb.

Gərgin və maraqlı keçən yarışda Ucal Musayev, Sinan Əbilov, Əlişan İsmayılov, Elçin İmanov, Elşən Əliyev, Vüsal Zeynalov, Mustafa Başirov, Nizami Novruzov, Kənan Şəfiyev, Ayxan Süleymanov, Mürşüd Hüseynov, Nöfəl Cəfərov, Kamal Allahverdiyev, Rasim Rzayev və Məhəmməd Məmiyev müvafiq çəki dərəcələrində qalib adını qazanıblar.

Sonda qaliblər təşkilatçılar tərəfindən diplomlarla mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2017-ci ilin fevral ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 508 | 36,4 | 36,5 | 100,3 |
| 2. | Ordubad rayonu | 1196 | 86,3 | 86,5 | 100,2 |
| 3. | Kəngərli rayonu | 802 | 57,7 | 57,8 | 100,2 |
| 4. | Culfa rayonu | 804 | 57,8 | 57,9 | 100,2 |
| 5. | Babək rayonu | 2450 | 177,8 | 177,9 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 5810 | 420,0 | 420,0 | 100,0 |
| 7. | Şərur rayonu | 2010 | 142,7 | 142,7 | 100,0 |
| 8. | Sədərək rayonu | 220 | 15,6 | 15,6 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 12355 | 1112,0 | 1112,5 | 100,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **26155** | **2106,3** | **2107,4** | **100,1** |

**Qeyd:** Fevral ayında texniki itki nəzərə alınmaqla daxil olan 26 milyon 155 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 106 min 300 manat olmuş, cəmi 2 milyon 107 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,1 faizini təşkil edir.

*Yeni nəşrlər*

# Uşaq ədəbiyyatına yeni töhfə

## *“Göy yerə zəng eyləyir” kitabında uşaqlara həsr olunmuş şeirlər toplanıb*




***Naxçıvanda yaşayıb-yaradan və ədəbi aləmdə öz imzası ilə yaxşı tanınan İbrahim Yusifoğlunun bu yaxınlarda növbəti kitabı nəşr olunub. “Göy yerə zəng eyləyir” adlı 250 səhifəlik kitabda uşaq ədəbiyyatı mövzusunda qələmə alınmış 300-dən çox şeir, üç poema və iki mənzum pyes toplanıb.***

İbrahim Yusifoğlunun uşaqlar üçün yazdığı şeirlərin ümumi ruhunu ifadə etmək baxımından Naxçıvan Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Nəzakət İsmayılovanın bu yaxınlarda nəşr olunan “Naxçıvan ədəbi mühiti: uşaq ədəbiyyatının inkişaf istiqamətləri və problemləri” monoqrafiyasında yazdığı bu fikirlərini xatırlatmaq istərdik: “İbrahim Yusifoğlunun kiçik oxucularına ünvanladığı əsərlərlə tanış olduqca, onların içərisində təbiət mövzusuna daha çox üstünlük verildiyi göz qabağındadır. Onun balaca qəhrəmanı sanki təbiətin sehrkar qoynunda səyahətə çıxmışdır. Burada hər çiçəyin özünəxas bənzətmələrlə ifadə olunması, onların öz ətri ilə uşaqlara tanıdılması, təbiət gözəlliklərinin uşaqlara sevdirilməsi müəllifin uşaq aləminə yaxşı bələd olmasından irəli gəlir”.

Şərur rayonunda fəaliyyət göstərən “Şərur” ədəbi birliyinə rəhbərlik edən İbrahim Yusifoğlunun bu günədək uşaqlar üçün bir neçə kitabı nəşr olunub. “Futbolçu, topçu, gopçu”, “Arpaçayın uşaqları”, “Azərbaycan vətənimdir”, “Vətən nəğməsi”, həmçinin “Seçilmiş əsərləri”nin ikinci cildi tamamilə uşaqların dünyasına həsr olunmuş şeirlərdən ibarətdir. Bundan əlavə, İbrahim Yusifoğlunun Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi “Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı” ilə bağlı hazırlanan “Müntəxəbat” dərsliyində, “Azərbaycan Uşaq Ədəbiyyatı Antologiyası”nda, muxtar respublikamızda nəşr edilmiş “Uşaqlar və Günəş” almanaxında, “Uşaq ədəbiyyatı” üççildliyində şeirləri dərc edilib.

2012-ci il 19 oktyabr tarixində keçirilən Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin konfransında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun çıxışında uşaq ədəbiyyatı məsələsinə toxunarkən dediyi bu fikirləri xatırlatmaq istəyirəm: “Uşaq ədəbiyyatı uşaq səviyyəsinə enənə ədəbiyyat yox, uşaqlar üçün ədəbiyyat olmalıdır.

Uşaq ədəbiyyatı uşağın formalaşmasında mühüm rola malikdir. Bu ədəbiyyat böyüməkdə olan gənc nəslin etik və estetik tərbiyəsinə istiqamət verməli, onları xalqımızın malik olduğu milli dəyərlər, qəhrəmanlıq, düzlük, əməksevərlik və vətənpərvərlik ruhunda tərbiyə etməlidir”.

İbrahim Yusifoğlunun qələmə aldığı nümunələr də məhz bu baxımdan diqqəti çəkir. O, şeirlərini uşaq səviyyəsinə endirmir. Uşaqlar üçün ədəbiyyat yaradır. Beləliklə də, uşaqları öz ədəbiyyatı səviyyəsinə qaldırır, müxtəlif mövzulu şeirləriylə balaca və yeniyetmə oxucular ölkəmizin, xalqımızın milli-mənəvi dəyərlərini təbliğ edir, onların öz dünyalarına xitab etməyi bacarır.

“Naxçıvanam – gözəlliklər məskəniyəm”, “Şirin-şəkər nəvələr” başlıqlarında toplanmış şeirlər, həmçinin “İydəli dərənin uşaqları”, “Novruz adətlərimiz”, “Nəzakət, hörmət, dostluq” poemaları, “Pəhləvanın bağında”, “Ceyranbulaq nağılı” mənzum pyesləri istər uşaq ədəbiyyatımızın zənginləşməsi, istərsə də azyaşlı oxucuların bədii ədəbiyyatla qismən təminatı baxımından böyük əhəmiyyətə malikdir. Bunun üçün də bu qəbildən olan kitablar müəyyən çevrə ilə məhdudlaşmamalı, əlaqədar qurumların ədəbi-tənqidi süzgəcindən keçirilərək daha artıq tirajla nəşr olunub geniş oxucu kütləsinin ixtiyarına verilməli, bağça və məktəb kitabxanalarında öz yerini almalıdır.

Sonda “Göy yerə zəng eyləyir” kitabı münasibətilə müəllifi təbrik edir, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Elxan YURDOĞLU**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 179